KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal

№ 1 (14) 2022

ƏDƏBİYYATŞÜNASLIQ

**Yusif Məhəmməd oğlu Mahmudov**
***tarix üzrə fəlsəfə doktoru, ekoloq***
***diriliqurbani@gmail.com***

*UDC 8:577.4 (09)*

# BİOİOLOJİ MÜXTƏLİFLİK VƏ ONUN QORUNMASI NZAMİ GƏNCƏVİNİN YARADICILIĞINDA BAŞLICA POBLEM KİMİ

***Xülasə:*** *İlk yarandığı dövrlərdə insanların yaşayış şəraiti, ümumilikdə həyat tərzi bütünlüklə təbiətlə bağlı olub və buna görə də ətraf mühitə birbaşa təsir göstəriblər. Fauna və floradan bəzi növlərin sayca azalması və ya nəslinin kəsilməsi bununla əlaqədardır. Bu səbəbdən növmüxtəlifliyinin saxlanması və qorunması aktuallıq kəsb edir.*

*Hazırda biomüxtəlifliyin qorunması qlobal ekoloji problemlərdən biri kimi mühüm əhəmiyyət daşıyır. Bioloji növlərin xilas edilməsinin yeganə yolu beynəlxalq əməkdaşlıq çərçivəsində mümkündür. Həyata keçirilən ölkə və beynəlxalq tədbirlərin biomüxtəlifliyin saxlanmasında mühüm əhəmiyyəti vardır. Bu istiqamətdə maarifləndirmə işlərinin aparılması problemin öyrənilməsi və aradan qaldırılmasında stimul ola bilər.*

*Təqdim olunan əsərdə klassiklərimizin yaradıcılığı örnək kimi maraq doğurur. Onların nəzəri fikirlərinin öyrənilməsi və nümunə olaraq yayılması fayadalı olardı. XII-XIII əsr Azərbaycan şairi Nizami Gəncəvini bu baxımdan pioner hesab etmək olar. Məqalədə dahi şairin əsərləri əsasında biomüxtəliflik kimi müasir dövrün nisbətən cavan, həm də qlobal probleminin öyrənilməsinə toxunulub.*

*Araşdırmalarımız göstərir ki, şairin bütün əsərlərində bioloji müxtəlifliyi əks etdirən fikirlər vardır. Nizami antropogen və digər səbəblərdən ərazidə nəsli kəsilmiş (yaxud sayı azalmış) növlər (onların bioloji xüsusiyyətləri, etimologiyası və s.) haqqında dürüst məlumat verir, salamat qalıb yaşayan canlı orqanizmlərin qorunması yollarını qeyd edir.*

***Açar sözlər:*** *Nizami Gəncəvi, əsərləri, ətraf mühit, biomüxtəliflik, ekoloji problemi, canlı orqanizm, növün saxlanması.*

**Yusif Magommed oglu Mahmudov**

**Biodiversity and its protection as the main problem in the works of Nizami Ganjavi**

***Resume:*** *In the first years of its existence, the living conditions of people, their way of life as a whole were connected with nature and, therefore, directly affected the environment. This is due to the numerical reduction or extinction of some species from the fauna and flora. For this reason, the conservation and protection of species diversity is becoming relevant.*

*Currently, the protection of biodiversity is important as one of the global environmental problems. The only way to save biological species is possible within the framework of international cooperation. Domestic and international events are important for the protection of biodiversity. Conducting educational work in this direction can become an incentive to study and eliminate the problem.*

*In the presented work, the creativity of our classics is of interest as an example. It would be useful to study their theoretical ideas and spread them as an example. The 12-13th-century Azerbaijani poet NizamiGanjavi can be considered a pioneer in this regard. The article, based on the works of the brilliant poet, touched upon the study of such a relatively young and global problem of our time as biodiversity.*

*Our research shows that in all the poet's works there are ideas reflecting biological diversity. Nizami considers species that have disappeared (or disappeared) on the territory for anthropogenic and other reasons (their biological features, etymology, etc.), notes ways to preserve organisms that remain alive.*

***Keywords:*** *Nizami Ganjavi, his works, environment, biodiversity, ecological problem, living organism, species conservation.*

**Юсиф Магоммед оглы Махмудов**

**Биоразнообразие и его охрана как главная проблема в творчестве Низами Гянджеви**

***Резюме:*** *В первые годы своего существования условия жизни людей, их образ жизни в целом были связаны с природой и, следовательно, напрямую влияли на окружающую среду. С этим связано численное сокращение или вымирание некоторых видов из фауны и флоры. По этой причине сохранение и охрана видового разнообразия приобретает актуальность.*

*В настоящее время охрана биоразнообразия имеет важное значение как одна из глобальных экологических проблем. Единственный способ спасения биологических видов возможен в рамках международного сотрудничества. Проводимые внутри страны и международные мероприятия имеют важное значение для охраны биоразнообразия. Проведение просветительской работы в этом направлении может стать стимулом к изучению и устранению проблемы.*

*В представленной работе творчество наших классиков представляет интерес как образец. Было бы полезно изучить их теоретические идеи и распространить их как пример. Пионером в этом отношении можно считать азербайджанского поэта XII-XIII века Низами Гянджеви. В статье на основе произведений гениального поэта было затронуто изучение такой относительно молодой и глобальной проблемы современности, как биоразнообразие.*

*Наши исследования показывают, что во всех произведениях поэта есть идеи, отражающие биологическое разнообразие. Низами рассматривает виды, исчезнувшие (или уменьшившиеся в численности) на территории по антропогенным и другим причинам (их биологические особенности, этимология и др.), отмечает способы сохранения организмов, остающихся живыми.*





***Ключевые слова:*** *Низами Гянджеви, его работы, окружающая среда, биоразнообразие, экологическая проблема, живой организм, сохранение вида.*

## Giriş

Bioloji müxtəliflik dedikdə, Yer üzərində yaşayan bütün canlıların, o cümlədən bakteriyaların, göbələklərin, bitki və heyvanların növmüxtəlifliyi nəzərdə tutulur. Hazırkı dövrdə biomüxtəlifliyin saxlanması və qorunması qlobal ekoloji problemlərdən biridir. Təsadüfi deyildir ki, BMT-nin müvafiq proqramı üzrə 1992-ci ildə Rio-de-Janeyroda keçirilən zirvə toplantısında "Bioloji müxtəliflik haqqında" Beynəlxalq Konvensiya qəbul edildi və 150-dən çox ölkənin nümayəndəsi tərəfindən imzalandı. Bu çox düzgün qərar idi, çünki planetimizdə mövcud olan qiymətli bioloji növlərin xilas edilməsinin yeganə yolu beynəlxalq əməkdaşlıq çərçivəsində mümkündür.

Azərbaycan Respublikasının Milli Məclisi 2000-ci ildə konvensiyanı ratfikasiya etməklə, beynəlxalq sənədi rəsmi şəkildə tanıdı və müəyyən öhdəçiliklər götürdü. Bundan sonra konvensiyanın şərtlərinə uyğun problemin həlli istiqamətində bir sıra vacib işlər görüldü.

Respublika Prezidentinin Sərəncamı ilə 2001-ci ildə "Biolomüxtəlifliyin genetik ehtiyatları üzrə dövlət komissiyası" yaradıldı və "Bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı" təsdiq edildi [2, s.12-24].

Dünya sistemində mövcud olan ekoloji problemlər sırasında biomüxtəliflik və onun qorunması hər zaman aktual bir məsələ kimi diqqəti cəlb edir. Bu istiqamətdə həyata keçirilən beynəlxalq əhəmiyyətli tədbirlər biomüxtəlifliyin azalması sahəsində mühüm addımdır. Bununla bağlı müxtəlif ölkələrdə, o cümlədən Azərbaycan Respublikasında layihələndirmə işlərinin aparılması təqdirəlayiqdir. BMT-nin nəzdində fəaliyyət göstərən Ətraf Mühit üzrə İnkişaf Proqramı çərçivəsində müvafiq tədbirlərin (beynəlxalq ekoloji konvensiyalar, dövlət və biosfer qoruqlarının təşkili və s.) reallaşdırılması, dünya ölkələri çərçivəsində birgə çalışmalara start verilməsi problemin həllinə kömək edən amillərdir. Həmçinin mövcud ekoloji durumla əlaqədar maarifləndirmə işlərinin aparılması az əhəmiyyət kəsb etmir [1].

Ətraf mühitin qorunması tarixinin öyrənilməsi bu bir nümunə kimi əhəmiyyətli ola bilər. Ayrı-ayrı sənət növləri üzrə klasiklərimizin yaradıcılığı bu cəhətdən zəngin mənbədir. Ona görə də klassiklərimizin əsərlərində əks olunan fikirlər bu yöndə elmi cəhətdən araşdırılmalı, nəzəri cəhətdən yaxşı öyrənilməli, daha geniş auditoriyaya çatdırılmalıdır. Biz bu barədə tədqiqatlarımızda qeyd etmişik [8, s. 36-51].

XII-XIII əsrlərdə yaşayıb-yaratmış Nizami Gəncəvinin əsərlərində biomüxtəliflik kimi müasir dövrün qlobal ekoloji probleminə toxunulması baxımından bu dahi şairin yaradıcılığını öyrənmək faydalı ola bilər. Araşdırmalarımız göstərir ki, şairin bütün yaradıcılığı ümumilikdə bioloji müxtəlifliyi əks etdirən fikirlər toplusudur. Məlumdur ki, N.Gəncəvinin bədii əsərləri elmi cəhtdən öyrədicidir, maarifçilik və təlim-tərbiyə xarakteri daşıyır. Onun yaradıcılığında həm müasiri olduğu dövrdə, həm də hazırda yayılan növlərin bioloji və etimoloji xüsusiyyətləri haqqında məlumat verilir, antropogen və digər amillər səbəbindən ərazidə nəsli kəsilmiş (yaxud sayları azalmış) növlər haqqında danışılır:

*Söyüdlük çöllərə vermişdir zinət,*
*Ağ bağı elə bil həqiqi cənnət.*
*Qırqovul yuvası, hər sərv ağacı,*
*Oxuyur kəkliyi, ötür turacı* [3, s. 201-202].

Bu misaldan görünür ki, söyüd bitkisinin arealı o dövrdə indiki kimi olmamış, daha geniş əraizini tutmuşdur. Söyüd susevən bitkidir, əsasən sucaq yerlərə yaxın ərazilərdə bitir. Ağ rəngli gövdəsi maraqlı görnüşü ilə diqqəti uzaqdan cəlb edir. Çox güman, Nizami "həqiqi cənnət" ifadəsini işlədərkən bunu nəzərdə tutur. Söyüddən başqa, şair sərv ağacının da adını çəkir. Qırqovul, kəklik və turac kimi quşların davranış xüsusiyyətlərinə - qırqovulun yuvalamasına, kəkliyin oxumasına, turacın ötməsinə diqqəti yönəldir. Çoxalma dövründə bəzi quş növləri özlərini bu cür aparır. Müxtəlif bitki və heyvan növlərinin ekoloji qruplar əmələ gətirməsi təqdim edilən nümunədə əksini tapıb. N.Gəncəvinin burada təsvir etdiyi mənzərə elmi mahiyyət kəsb edir.

Burada gətirəcəyimiz misallarda biomüxtəlifliyə aid fikirlər realdır:

*...Saya gəlməyirdi zil qara samur*
*Saf qaqum o qədər yüklənmiş görcək,*
*Nə saymaq mümkündür, nə də söyləmək.*
*Al tülkü dərisi, sincablar parlaq,*
*Hələ nal görməmiş bir ilxı daylaq* [3, s. 358].

Birinci misrada "qara samur", ikinci misrada "saf qaqum", üçüncü misrada "al tülkü" və "sincab" kimi növlər bu gün də təbiətdə yayılıblar. Məməlilər sinfinə aiddirlər. Saf qaqum - pişik cinsindən olan boz-qara quyruqlu xəzli heyvandır, adi gəlinciyə qohum növdür. Qara samur - dələkimilər fəsiləsinə aid növdür, Al tülkü – qırmızı və ya adi tülkü, itkimilər fəsiləsinə mənsub yırtıcı, xəzli heyvandır. Sincab – gəmiricilər dəstəsinə daxildir. Nizami "hələ nal görməmiş bir ilxı daylaq" (daylaq - atın balası) – dedikdə, atların dırnaqları bərkiməmiş balalarını nəzərdə tuturdu. O, haqqında danışdığı heyvanların daha geniş ərazilərdə yayıldıqlarını, miqdarca saylarının çox olduğunu "nə saymaq mümkündür, nə də söyləmək" fikri ilə bildirir.

*"Ovçu ilə itin və tülkünün hekayəti", "Adil Nuşirəvanla vəzirin hekayəti"* və *"Ovçu ilə tülkünün hekayəti"* bəhsində də Nizami maraqlı məsələlərə toxunmuşdur. Məlumdur ki, yaxın yüzilliklərə qədər ovçular ov iti cinslərindən geniş istifadə





etmişlər. Belə itlər daha çevik və güclü olmuş, iy qabiliyyətləri xeyli yaxşı inkişaf etmişdir. Bu cür it cinslərinin yetişdirilməsinə orta əsrlərdə xüsusi fikir verilmişdir. N.Gəncəvi sanki bunları demək istəyib [5, s. 121].

*Tez görən, uzaq görən, usta bir ovçu vardı,*
*Gəzib biyabanları, ov yerini tapardı.*

*Bəd bir iti vardı ki, çeviklikdə şir, aslan,*
*Günəş şüalarını ceyran belində tutan.*

*Kərgədan tük salardı boynunun qüvvəsindən,*
*Çöl eşşəyi dişindən, dağ kəli zərbəsindən.*

Bu misralarda şair yalnız ov itinə yox, həm də onun güclü olmasına, cəldliyinə diqqəti cəlb etmişdir. Dahi şair əsərlərində növ sayı kəskin azalmış və ya nəsli kəsilmiş bəzi heyvan növlərinin də adlarını çəkir: Dağ kəli, Çöl eşşəyi, kərgədan, şir (aslan), ceyran və b.-nı misal göstərir. Aşağıdakı şeir parçasında adları qeyd edilən qarınca (qarışqa), tovuz quşu, çibin (milçək), pişik, bulbul və fil kimi heyvanları da bura əlavə edə bilərik:

*Qarışqa Süleyman taxtıdır deyə*
*Bir çibin qanadı verdi hədiyyə.*
*Tovuzun qanadı olsa da rəngin,*
*Basana səsinə - pişikdən çirkin.*
*Bac kiçik bir bülbül cəh-cəh edərkən*
*Quşları aşağı endirər göydən* [3, s. 394].

Və ya:

*Nə aciz qarınca, nə də güclü fil*
*Əlimdən bir zərər görməz, onu bil* [3, s.186].

Yaxud bayquş və qartal kimi yırtıcı quşları, məməlilərdən yırtıcı vaşaqı və kəklik kimi dinc heyvanı da misal gətirmək olar:

*Qayaya qonmağa tapmamış macal*
*Kəkliyin üstünü aldı bir qartal.*
*Üzərək başını öldürdü quşu...* [3, s. 104]

Eləcə də:

*Kin ilə Yunana doğru yol açdı*
*Keçdiyi yerlərdə bayquş ulaşdı...*
*...Saf vaşaq dəridən məclis olur şən* [3, s. 116, 358].

Digər nümunələrə də baxaq:

*Acıqlı canavar - o kinli heyvan*
*Qorxarmı qoyunun çox olmasından...*
*...Aslan pəncəsindən alınmaz şikar!*
*Bir qarğa kəkliktək səkdi bir zaman,*
*Öz yerişi belə çıxdı yadından...*
*...Sürüdə qoyuna qurd olar çoban,*
*Marala, ceyrana toxunmaz aslan* [3, s.118, 132, 188].

Göründüyü kimi, şair yuxarıdakı misralarda aslanın, canavarın güclü, yırtıcı heyvan olduqlarını, bəzi qarğalarda kəklik kimi səkmək, yəni hər iki ayağı üstündə hoppanmaqla hərəkətetmə kimi davranış elementlərinin olduğunu bildirir, maralın, ceyranın adlarını çəkir. Sonuncu misralarda qurdun "sürüdə qoyuna çoban olması", "aslanın marala, ceyrana toxunmaması", şübhəsiz, rəmzi xarakter daşıyır. Nizaminin bu fikirləri müasir elmi yanaşma ilə insan ekologiyasına misaldır və tərbiyəvi əhəmiyyət kəsb edir.

Bitkilərin biomüxtəlifliyinə aid tipik nümunələrə nəzər salaq:

*Bənövşə zülfündən bükümləri at,*
*O sərxoş nərgizi yuxudan oyat.*
*Qönçənin dodağı hələ süd qoxur,*
*Qızılgül yağından ona ətir vur.*
*Qoy sərvin qaməti göyə yüksəlsin,*
*Qumruya xəbər ver, bahardır, gəlsin.*
*Müjdə ver, nağməyə başlasın bülbül,*
*Beşiyində gəldi meyxanəyə gül.*
*Lalənin qəlbində coşan qan artır,*
*Torpaqla ört onu, qanını yatır.*
*Nəstərən saçından ağ tükləri at,*
*Bədmüşk kölgəsilə telini qaralt...*
*Səmənə salam ver ərğəvan güldən,*
*Suvar bağ-çəməni, canlansın gülşən* [3, s. 58].

Bu misalda təkcə bitki növlərinin deyil, bülbül və qumru kimi heyvanların da adlarına rast gəlirik. Hər iki növ klassik ədəbiyyatda yaz mövsümü ilə bağlı ən çox təsvir edilən quşlardandır. Bülbül sərçəkimilər dəstəsindən alabəzək, qumru isə göyərçin çinsindən olan boz rəngli quş növüdür. Baharın öygüsü ilə başlanan bu şeir parçalarında mövsüm hadisəsinin başlandığı, hər gülün-çiçəyin morfoloji xüsusiyyətləri qeyd edilib. Şair burada lalə, qızılgül, nərgiz, bənövşə, sərv, nəstərən, bədmüşk kimi bitkilərin adlarını çəkir. Qeyd etmək lazımdır ki, nəstərən və sərv ağacı klassik ədəbiyyatda adları ən çox çəkilən bitkilərdir. O dövrdə Sərv ağacı Şərqdə ən ucaboylu bitki kimi qəbul olunurdu və gözəllərin uca boyu ona bənzədilirdi. Ağ çiçəkli yabanı gül olan nəstərən (və ya ərikgülü) isə orta əsrlərdə Azərbaycanda bir bəzək bitkisi kimi becərilirdi.





N.Gəncəvinin və başqa klassiklərimizin şeirlərində qeyd olunan bəzi bitki və heyvan növlərinin adlarından bənzətmə kimi istifadə olunub. Məsələn, bənövşənin morfoloji quruluşu elədir ki, onun çiçəyinin aşağı doğru əyilmiş vəziyyəti boynubüküklük təsəvvürü yaradır və aşıqların deyimində, bənzətmələrində ayrılıq mənasını ifadə edir. XV-XVI əsrlərdə yaşayıb yaratmış, Azərbaycan klassik aşıq sənətinin banisi, haqq aşığı, el şairi Dirili Qurbani deyirdi:

*Qurbani der: Könlüm bundan sayrıdı*
*Nə etmişəm, yarım məndən ayrıdı.*
*Ayrılıqmı çəkib boynu əyridi,*
*Heç yerdə görmədim düz bənövşəni* [7].

Nizami bundan məharətlə istifadə edib: "Bənövşə zülfündən bükümləri at..." Nərgizin mürgü vəziyyətini sərxoşa, lalənin qırmızı rəngini qana bənzədir, qızılgülün ətirli qoxusunu qeyd edir.

Xeyli dərəcədə aktuallıq kəsb edən biomüxtəlifliyin qorunması kimi qlobal və vacib bir problemi dahi N.Gəncəvi özünəməxsus şəkildə bədii ədəbiyyata gətirmiş, bununla da ətraf mühitə qayğıkeş münasibətin gözəl nümunəsini yaratmışdır.

Böyük şair hesab edirdi ki, insan təbiətə qayğı göstərməklə, onun mövcud vəziyyətini qoruyub saxlaya da bilər, dağıda da. Nizami haqlı idi: insan, ətraf mühitə təsir göstərən ən güclü biofaktordur, antropogen amildir. "Suvar bağ-çəməni, canlansın gülşən" – Nizami bununla təbiətə qayğıkeş münasibətin faydasını, qorunub qalma ehtimalını qeyd edir. Onun əsərləri ilə yaxından tanışlıq göstərir ki, təbiətin qorunması Nizami dövrünün səciyyəvi qaydalarından olmuşdur. Şairin əsərlərində buna aid misallar çoxdur:

*Almasından pası sil, odböcəyə dəyməz adam,*
*Necə gör bəslər o zülmətdə kiçik ülkərini* [8, s. 36-51].

Atəşböcəyi (odböcəyi) kimi faydalı həşəratların qorunması müasir ekologiya elminin problemlərindən biridir. Atəşböcəyi, böcəkkimilər (sərtqanadlılar) fəsiləsindən olub, gecələr işıq saçan fənərciyi xatırladır. Ona bəzi yerlərdə işıldaquş da deyirlər. Erkəkləri qanadlı, dişi fərdləri qanadsızdır. Erkəyin "fənəri" qısamüddətli yandığı halda, qanadsız dişi böcəyinki bütün yayı gecələrin zülmətini yararaq hər tərəfi işıqlandırır. Bu faydalı böcək bir çox bitkilərin aktiv zərərvericisi olan ilbizlərin çanağına girərək onu tələf edir. Ona görə də şair "odböcəyə dəyməz adam" deyir.

Canlı təbiətin qorunması Nizaminin "Yeddi gözəl" və "Leyli və Məcnun" poemalarında daha qabarıq verilib. "Bəhramın ova çıxması və gurları dağlaması" bəhsində (*"Yeddi gözəl"*) şair hələ o dövrdə mövcud olmuş və təbiətin xilasına yönəlmiş ovçuluq qaydalarına işarə edərək yazırdı:

*Yıxsaydı yüz guru əgər yan-yana,*
*Qıymazdı dörd yaşı qurtarmayana.*
*Onun bir beləcə adəti vardı:*
*Gənc gurun qanını haram sayardı* [6, s. 63].

Müasir dövrdə ov heyvanlarının ovlanması barədə xüsusi qaydalar mövcuddur. Onlardan biri də körpə, gənc heyvanların ovlanmasının qadağan edilməsidir. "Məcnunun ahuları azad etməsi" bəhsində *("Leyli və Məcnun")* Nizami təbiətə münasibətdə ədalətli olmağa, onun gözəlliklərini duymağa çağırır. Məcnun ceyranları ovlayıb başını kəsməyə hazırlaşan ovçunu qınayır:

*Ahular başından götür tələni,*
*Onları azad et, sevindir məni.*
*Yazıq heyvanlara nə qəsdin vardır?*
*Onlar həyat üçün yaranmışlardır* [4, s. 124].

*"Məcnunun marali azad etməsi"* bəhsində isə şair Məcnunun maralı ovçunun əlindən alıb buraxdığı səhnəni təqdim edir:

*Ey zalım ititək yazığı tutan*
*Aç qurduğun toru, zülümdən utan…*
*Gəl onu sən salma tor havasına,*
*Getsin öz tayıyla öz yuvasına.*
*Onu sevgilisi tapmasa əgər,*
*Bu gecə arxanca nə sözlər deyər?*
*Deyər: - Səni məndən alan ovçular*
*Ayrılıq dərdinə olsunlar düçar.*
*Qoy səni ovlayan mən günə düşsün,*
*O da yar gözündən sürgünə düşsün.*
*- Dərd duya bilirsə səndəki ürək,*
*Öz tamah dişini bu ovdan gəl çək.*
*Neylərdin qəfəsdə özün qalsaydın,*
*Maral ovçu olub, sən ov olsaydın?* [4, s. 126-127]

Təqdim edilən nümunədə Nizami Məcnunun hərəkətlərini örnək kimi diqqətə çatdırır. Göstərir ki, Məcnun öz silahını və sazını ovçuya verib, əvəzində maralı alır və onu sərbəst buraxır.





**Nəticə**

Rəsmi qadağaların mövcud olmadığı dövrlərdə təbiətin mühafizəsi problemi xalqın adət-ənənələri çərçivəsində aparılıb. Bəzi bitki və heyvan növlərinin müqəddəsləşdirilməsinə xidmət edən mükəmməl inanc sistemi yaradılıb. Bu yolla ətraf mühiti qorumaq mümkün olub.

N.Gəncəvi dövrünün adət və ənənələrinə sadiq qalaraq, qazandığı bilik və bacarıqlardan bəhrələnmiş, biomüxtəlifliyin qorunmasında maarifçilik prinsipini önə çəkmişdir. Bizə görə bu, həmin dövr üçün ən optimal variant idi. Əhalidə təbiətə ögey münasibət dahi şairi daim düşündürmüş, onların qəlbində təbiətə məhəbbət, sevgi hissləri aşılamağa çalışmışdır. Bununla belə, dahi şair canlı orqanizmlərə təsir göstərən antropogen amilləri də qeyd etməyi unutmamışdır:

*Bu vəhşi, yırtıcı, divxislət insan,*
*Səmimi dost deyil, uzaq ol ondan!*
*Hər maral ovçunun zülmündən qaçar,*
*Yırtıcı, vəhşidir hələ insanlar.*
*Çöldə şux bir ceyran düşməyir ələ,*
*İnsandan sığınır dağa, köhülə* [3, s. 158].

Bu cür münasibətin nəticəsində minlərlə bitki və heyvan növü tamamilə yox olmuş, yaxud sayı azalmışdır. Təbiətə kobud müdaxilə bir sıra qiymətli bitkilərin məhvinə gətirib çıxarmışdır. Planetimizdə biomüxtəlifliyin qorunub saxlanması bəşəriyyətin gələcəyi üçün olduqca əhəmiyyətli və prinsipal məsələlərdən biridir. Nizami Gəncəvi və digər kassiklərimizin öyrənilməsi, təbliği və təşviqi bu cəhətdən faydalı ola bilər.

**ƏDƏBİYYAT**

1. *Azərbaycan Respublikasının Biomüxtəliflik üzrə ölkə tədqiqatı. Bioloji Müxtəliflik Konvensiyası üzrə Birinci Milli Məruzə. - Bakı: AMEA, Əlfəril, 2004. - 160 s.*
2. *Əliyev, C.H., Əkbərov, Z.İ. Məmmədov, A.T. Bioloji müxtəliflik. - Bakı: Elm, 2008. - 232 s.*
3. *Gəncəvi N. İsgəndərnamə. Şərəfnamə. - Bakı: Lider, 2004.- 432 s.*
4. *Gəncəvi N. Leyli və Məcnun. - Bakı: Lider, 2004. - 288 s.*
5. *Gəncəvi N. Sirlər xəzinəsi. - Bakı: Lider, 2004. - 264 s.*
6. *Gəncəvi N. Yeddi gözəl. - Bakı: Lider, 2004. - 336 s.*
7. *Qurbani. Əsərləri. - Bakı: Şərq-Qərb, 2005, 232 s.*
8. *Mahmudov, Y.M. Azerbaycan klassık şair ve düşünürlerinin eserlerinde ekoloji fikirlerin gelişimi (XI-XIX. Yüzyılarası) T.C. Kilis 7 Aralık Üniversiesi Sosial Bilmler Dergisi Türk Dili ve Edebyyatı Sayısı, Cild 5, sayı 9 - Hazıran 2015, s. 36-51.*

**Rəyçi:**
**Anar Məmmədov,**
***BDU-nun dosenti, biologiya üzrə fəlsəfə doktoru***